


*Vüqar ƏHMƏD*

## SALAM OLSUN

Savaşımız zəfər oldu,
Ordumuza salam olsun.
Düşmən daha betər olsun,
Yurdumuza salam olsun.

Başqan İlham tək insana,
Rəcəb Tayyib Ərdoğana,
Cənab Haqqa, Yaradana,
Türküstana salam olsun.

Şəhidlərim paralandı,
Qazilərim yaralandı,
Qarabağım çox talandı,
Ellərimə salam olsun.

Qarabağda əzan verən,
Namaz qılan oğullara,
Şəhidlərə rəhmət deyən,
Hər insana salam olsun.

Qarabağdır Azərbaycan!
Qurban sənə:-şəhidim, can!
Qarabağda o ucalan,
Bayrağıma salam olsun.

Gözü yaşlı analara,
Gəlinbacı sonalara,
Ölənlərə, qalanlara,
Bismillahla salam olsun.

Bu vətənin duz-çörəyi,
Oğullara halal olsun.
Düşmənlərə haram olsun!
Millətimə salam olsun.

Qoy düşməsin yaş yanağa,
Rədd ol:-Dedik yad "qonağ"a,
Düz Bakıdan Qarabağa,
Bir atəşin salam olsun.

Rəhmət deyən dil-dodağa,
Yurdumuzda hər oymağa,
Qarlı-qışlı Murov dağa,
Savalandan salam olsun.

Torpağımız böyük sərvət,
Əsgərimə vardır hörmət,
Bax, söyləyir Vüqar Əhməd:
-Başqanıma salam olsun!

